# Görülən işlər insanların rahatlığına xidmət edir

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin intensiv keçirilən səyyar görüş-qəbulları zamanı sakinləri düşündürən məsələlər araşdırılır, onların problemləri həll edilir. İrəli sürülən təkliflərin, qaldırılan məsələlərin həlli istiqamətində görülən işlər əhali arasında böyük razılıq hissi ilə qarşılanır.***

## Nic qəsəbəsi

Belə görüş-qəbullardan biri bu günlərdə Nic qəsəbə sakinləri ilə keçirilib. Rayonun hüquq mühafizə orqanlarının, xidmət təşkilatları rəhbərlərinin, və qəsəbə sakinlərinin iştirak etdikləri səyyar qəbulda çıxış edən RİH-nin başçısı bu cür görüşlərin ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə mütəmadi olaraq təşkil olunduğunu bildirib. O, dövlət başçısının bütün bölgələrə, o cümlədən Qəbələyə





göstərdiyi diqqət və qayğıdan danışıb, rayonda həyata keçirilməsi nəzərdə trutulan layihələrdən bəhs edib.

Rayon icra hakimiyyətinin başçısı çıxışında digər yaşayış məntəqələri kimi, tolerantlığın nümunəvi modeli olan Nic qəsəbəsində də işıq, su, qaz, rabitə, yol və digər sosial qayğıların tam həll olunduğunu vurğulayıb. Görüş-qəbulda qəsəbədə fəaliyyət göstərən 5 məktəbin, 2 uşaq bağçasının, xəstəxananın, poçt şöbəsinin, mədəni-maarif müəssisələrinin və sair sosial obyektlərin maddi-texniki bazasının möhkəmləndirilməsi, avadanlıqlarla təchiz edilməsi sahəsində görülən işlər diqqətə çatdırılıb və bu istiqamətdə tədbirlərin davam etdiriləcəyi bildirilib.

Sonra sakinlər tərəfindən irəli sürülən müraciət, təklif və şikayətlərə baxılıb.

Qəsəbə sakinlərindən Rövşən Balayev, Rafik Danakari, Frans Vartanov, Yaqub Süleymanov, Venera Antonova Rüstəm İslamov və başqaları çıxış edərək yaşayış məntəqəsində daxili yolların, elektrik xətlərinin, 4 və 5 nömrəli məktəblərin binalarının təmir olunmasını və ərazidə yeni bank terminalının qoyulmasını xahiş ediblər.

Qaldırılan məsələlərin həll edilməsi üçün RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq göstərişlər verilib və icrası nəzarətə götürülüb.

Görüş-qəbul zamanı çıxış edən qəsəbə sakinləri onlara göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## Yemişanlı kəndi

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin növbəti görüş-qəbulu Yemişanlı kəndində olub. Görüşdə hüquq-mühafizə orqanlarının, xidmət sahələrinin rəhbərləri və kənd sakinləri iştirak edib.

Görüş-qəbulu giriş sözü ilə açan RİH-nin başçısı ölkəmizin sürətli sosial-iqtisadi inkişafından, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq Qəbələ rayonunda həyata keçirilən sosial infrastruktur layihələrindən, aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərindən danışıb.

Rayon icra hakimiyyətinin başçısı ötən il keçirilən görüşdən sonra ərazidə xeyli abadlıq və quruculuq işlərinin görüldüyünü, digər yaşayış məntəqələri kimi Yemişanlı kəndinin də dayanıqlı rabitə, fasiləsiz işıqla təchiz edildiyini diqqətə çatdırıb. Bildirilib ki,



tikintisi başa çatdırılan Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx asfalt yolunun kənd sakinlərinin istifadəsinə verilməsi son illər ərzində bu yaşayış məntəqələrinə göstərilən diqqət və qayğının yüksək təzahürüdür.

Sonra kənd sakinləri dinlənilib. Çıxış edənlərdən Rasim Qasımov, Limunə Hacıyeva, Emin Daşdıyev, Məmmədəli Şərifov, Şükufə Rəfiyeva, Tehran Həmidov və digərləri rayonda aparılan abadlıq-quruculuq işlərinə, vətəndaşlara göstərilən diqqət və



qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Onlar Yemişanlı kəndinə qaz xəttinin çəkilməsinə, işıq xətlərinin təmir olunmasına, yeni yaşayış massivində artezian quyusunun qazılmasına köməklik göstərilməsini xahiş ediblər.

Sakinləri narahat edən məsələlərlə bağlı verilən sualları ətraflı cavablandıran RİH-nin başçısı qaldırılan məsələlərin həlli istiqamətində müvafiq qurumlara tapşırıqlar verib.

## Çuxur Qəbələ kəndi

Daha bir görüş-qəbul Çuxur Qəbələ kəndində keçirilib. Görüşdə rayonun hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri, ağsaqqallar, ziyalılar və kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər.



Qəbul zamanı RİH-nin başçısı ölkəmizdə qazanılan uğurlardan, əhalinin sosial problemlərinin



həlli istiqamətində həyata keçirilən tədbirlərdən, Prezidenti İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə rayonumuzda aparılan quruculuq işlərindən və qarşıda duran vəzifələrdən ətraflı danışıb.

Sonra kənd sakinləri dinlənilib. Müraciət edən vətəndaşlardan Elsevər Orucov, Əlihüseyn Şərifov, Müşfiq Əzizov və digərləri əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatlara görə ölkə başçısına dərin minnətdarlıqlarını bildiriblər.

Onlar çıxışlarında kənd məktəbinin cari təmir olunmasını və yeni yaşayış massivinə qaz xəttinin çəkilməsini xahiş ediblər.

Görüş-qəbulda sakinləri narahat edən sosial problemlər müzakirə edilib, həll olunması ilə bağlı RİH-nin başçısı tərəfindən əlaqədar təşkilatların rəhbərlərinə lazımi tapşırıq və göstərişlər verilib.

**"Qəbələ"**

**İlkin Vəlizadə (foto).**

# Tibb işçilərinin peşə bayramı qeyd olunub

***1918-ci il iyunun 17-də Azərbaycan Xalq Cümhuriyyətinin ilk Səhiyyə Nazirliyinin yaradılması nəzərə alınaraq ümummilli lider Heydər Əliyev tərəfindən 4 iyun 2001-ci il tarixdə imzalanan Sərəncamla ilə hər il 17 iyun tarixi ölkəmizdə Tibb İşçiləri Günü kimi qeyd olunur.***

Rayonun səhiyyə işçiləri bu münasibətlə iyunun 18-də peşə bayramlarını qeyd ediblər. Onlar əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, ulu öndərin xatirəsini ehtiramla yad ediblər.

Sonra tibb işçilərinin peşə bayramına həsr edilmiş tədbir keçirilib. Tədbirdə iştirak edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev səhiyyə işçilərini peşə bayramı münasibətilə təbrik edib. RİH-nin başçısı təbrik nitqində ölkədə səhiyyə sahəsində aparılan islahatlardan söz açıb, dövlətin səhiyyə sahəsinə olan diqqəti nəticəsində baş vermiş müsbət dəyişikliklərdən danışıb.

Ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra onun həyata keçirməyə başladığı islahatların tibb sahəsində də öz bəhrəsini verdiyi, ulu öndərin səhiyyə sahəsində apardığı islahatları bu gün uğurla davam etdirən Prezident İlham Əliyevin diqqət və qayğısı ilə bölgələrdə müasir tibb mərkəzlərinin açıldığı, köhnə tibb ocaqlarının bərpa olunaraq yeni avadanlıqlarla təmin olunduğu, bu sahənin maddi-texniki bazasının, kadr potensialının daha da gücləndirilməsinin və infrastrukturun yeniləşdirilməsinin daim diqqət mərkəzində olduğu bildirilib. Diqqətə çatdırılıb ki, dövlət başçısının səhiyyəmizə göstərdiyi qayğı nəticəsində 2008-ci ildə rayonumuzda tikilərək istifadəyə verilən Qəbələ Müalicə Diaqnostika Mərkəzi də bu diqqətin təzahürü kimi qiymətləndirilməlidir.

RİH başçısının təbrik nitqində səslənib ki, dövlət başçısı tərəfindən imzalanan sərəncama əsasən Qəbələdə tikintisinə başlanılan və hazırda inşası davam edən yeni mərkəzi xəstəxana kompleksi də səhiyyə sahəsinə davamlı olaraq göstərilən qayğının təntənəsidir.

Səbuhi Abdullayev çıxışının sonunda bu qayğının xalqımıza və səhiyyəmizə verilən yüksək qiymət olduğunu bildirib.

Tədbirdə qabaqcıl səhiyyə işçilərinə Qəbələ Rayon İcra Hakimiyyətinin Fəxri fərmanları təqdim olunmuşdur.

**Cavanşir MƏLİKOV,**
**baş həkimin müavini.**